**Respublika.** - 2024.- 7 dekabr. - № 270. - S. 5.

# Xalqımıza qarşı etnik təmizləmə, soyqırımı və təcavüzkar siyasət

**Mehparə Əliyeva**

**XIX əsrin əvvəllərində çar Rusiyası Cənubi Qafqazın böyük bir hissəsini işğal etdikdən sonra 1813-cü ilin oktyabr ayında Gülüstan müqaviləsi imzalandı. Rusiya ilə İran arasında uzun sürən müharibə isə Türkmənçay müqaviləsi ilə yekunlaşdı. Gülüstan sülh müqaviləsinə əsasən Rusiyanın nəzarətinə keçən ərazilərdən başqa İrəvan, Naxçıvan və Talış xanlığının qalan hissəsi də rus imperiyasının tərkibinə daxil edildi. Bundan sonra Cənubi Qafqazda hökmranlıq edən çar Rusiyası tərəfindən İran və Türkiyədən ermənilərin İrəvan və Qarabağ ərazilərinə köçürülməsinə başlandı. Tarixi torpaqlarımızda yerləşdirilən ermənilər çar Rusiyasının himayəsi altında bu yerlərdən azərbaycanlı izini silməyə, mədəni irsimizi mənimsəməyə, yer adlarını dəyişdirməklə özününküləşdirməyə başladılar. Haylarda türk düşmənçiliyi, kin-küdurət o həddə çatmışdı ki, torpağında dövlət qurduqları bir xalqa qarşı həddi-hüdudu olmayan vəhşiliklər, qətliamlar, soyqırımları törətmişlər.**

Erməni şovinistlərinin azərbaycanlılara qarşı iki yüz ildən çox davam edən soyqırımı siyasəti 1905-1907, 1918-1920, 1948-1953 və 1987-1991-ci illəri əhatə etmiş, azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törədilmiş, xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə düçar olmuşdur. "Böyük Ermənistan" yaratmaq kimi məkrli niyyətlərini həyata keçirmək istəyən ermənilər əvvəllər çar Rusiyasına, sonralar isə sovet rejiminə arxalanaraq törətdikləri etnik təmizləmə siyasəti nəticəsində bir milyondan artıq soydaşımız öz yurd-yuvasından didərgin salınmışdır.

1905-1907-ci illərdə İrəvan və Yelizavetpol quberniyalarında 200-dən artıq azərbaycanlı kəndi yerlə-yeksan edilmiş, əhalisi soyqırımına məruz qalmışdı. "Daşnaksütyun" partiyasının liderləri yerli təşkilatlara İrəvan, Gəncə və Qarabağ mahallarında olan bütün türk kəndlərini viran qoymaq, bu kəndləri yerli əhalidən, yəni azərbaycanlılardan tamamilə təmizləmək barədə göstəriş vermişdilər. Haylar "türksüz Ermənistan"a nail olmaq üçün xalqımıza qarşı ən qəddar vəhşiliklər həyata keçirmiş, "Daşnaksütyun" və "Hnçak" partiyaları qatı millətçilik nümayiş etdirmişlər. Bu vəhşilikləri yazıçı, dramaturq M.S.Ordubadi belə qələmə almışdır: "Həsən Əfəndinin qətl yerindən bir az şimala doğru bir palaz parçası göründü. Bu camaatın hamısını ağlatdı. Zira palazı kənara çəkən kimi 15 nəfər üzərində çiçək, yəni abidə əlaməti sönməmiş körpə cocuqların kəsilmiş başları və bir para bir-birinə qarışmış bədənləri göründü. Cənub səmtdə həddən artıq arvad-uşaq bədənləri tökülmüşdü, küləyin şiddətindən yüksək təpələrdən qarlar cənazələrin üstə yığılmışdı. Amma yenə bədənlərində son nəfəsi olan qətl olmuş məzlum bacıların görünən qanlarından qarlar uzaqdan bahar lalələri kimi qızarırdı…".

Erməni müəllifi Zavaryan isə "Qarabağın iqtisadi vəziyyəti və 1905-1907-ci illərdə aclıq" adlı əsərində 1905-ci ildə azərbaycanlıların kütləvi qırğını zamanı 75 müsəlman kəndinin - Şuşada 12, Cavanşir bölgəsində 15, Cəbrayılda 5, Zəngəzurda 43 kəndin yandırıldığını, dağıdıldığını yazmışdır.

1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik silahlı dəstələri tərəfindən kütləvi qırğınlar törədilmiş, on minlərlə dinc azərbaycanlı məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilmişdir. 1918-ci il mart qırğınları ermənilərin xalqımıza qarşı həyata keçirdiyi düşmənçilik siyasətinin ən faciəli səhifələrindəndir. Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər tərəfindən 50 min azərbaycanlı qətlə yetirilmiş, 10 minlərlə insan öz torpaqlarından qovulmuş, təkcə Bakıda 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüşdür. Şamaxıda 58 kənd dağılmış, 7 min nəfər qətlə yetirilmiş, Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə-yeksan edilmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qədim şəhərimiz İrəvanı Ermənistana güzəştə getməsi, keçmiş sovet hökumətinin qərarı ilə 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınıb Ermənistana verilməsi ilə xalqımızın başına böyük bəlalar gətirilmiş, İrəvanda yaşayan soydaşlarımız əsrin əvvəllərindən sonlarına qədər mərhələli şəkildə bu torpaqlardan zorla çıxarılmış, mədəni irsimiz, tarixi abidələrimiz yer üzündən silinmişdir. Tarixçi-alim Nazim Mustafanın "İrəvan quberniyasında azərbaycanlıların soyqırımı (1918-1920)" adlı araşdırmasında qeyd olunur ki, Gəncə qəzasının dağlıq hissəsinin 5-ci sahəsinin müsəlman əhalisinin müvəkkili İsmayıl Sultanov Gəncə qəza rəisinə ünvanladığı 1919-cu il 22 aprel tarixli məlumatında yazırdı: "Aprelin 13-dən etibarən Ararat (Ermənistan) Respublikasının qoşunları Novo-Bəyazid qəzasının Göyçə rayonunun şərq və şimal bölgəsinin müsəlman

kəndlərini təmizləmək məqsədilə hücumlara başlayıb. İndiyədək Göyçənin 60 minə yaxın əhalisi olan 22 kəndi dağıdılıb, yandırılıb və əhalisi təmizlənib... Ermənistan respublikası öz məqsədinə çatıb, artıq Göyçə rayonunda müsəlman (Azərbaycan türkü - red.) qalmayıb. Novo-Bəyazid qəzasının 84 müsəlman kəndi məhv edilib ki, onlardan da 22-si aprelin 13-20-si arasında dağıdılıb. Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Ayaq Şorca, Söyünquluağalı, Ağkilsə, Zod, Quluağalı, Böyük Qaraqoyunlu, Bala Qaraqoyunlu, Zərzibil, Canəhməd, İnəkdağı, Qaraiman, Kəsəmən, Başkənd, Bala Məzrə, Böyük Məzrə, Şişqaya, Qayabaşı, Hacı Qərib kəndlərində 15 min evin əhalisinin mal-mülkü talan edilib və ermənilərə qismət olub".

Azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası əsasən 1948-1953-cü illərdə keçmiş sovet rəhbəri İ.Stalinin göstərişi ilə həyata keçirilmişdir. Belə ki, SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və başqa azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında"kı 1947-ci il 23 dekabr tarixli 4083 saylı fərmanına uyğun olaraq 1947-1950-ci illərdə Ermənistan SSR-in azərbaycanlı əhalisinin kütləvi şəkildə köçürülməsinə başlanılmışdı. Bu plana əsasən 1948-ci ildə 10 min nəfərin, 1949-cu ildə 40 min nəfərin, 1950-ci ildə isə 50 min azərbaycanlının köçürülməsi nəzərdə tutulurdu. Beləliklə, 100 min azərbaycanlı Ermənistandan köçürülməli idi. Lakin 1954-cü ilə qədər davam edən azərbaycanlıların məcburi köçürülməsi zamanı qərarda göstərilən rəqəm yüz dəfələrlə çox olmuşdur. Qərar əsasında köçürülən azərbaycanlıların yaşayış yerlərinə isə xarici ölkələrdən gətirilən ermənilər yerləşdirilmişdir.

SSRİ Nazirlər Sovetinin qərarına əsasən kolxoz və sovxozlarda yaşayan azərbaycanlıların kütləvi şəkildə Kür-Araz ovalığına - Ucar, Zərdab, Əli Bayramlı (Şirvan), Salyan, Saatlı, Sabirabad, Yevlax, Kürdəmir, Mirbəşir (indiki Tərtər) rayonlarına köçürülməsi dağlıq və dağətəyi ərazilərdə yaşayan insanlar üçün dözülməz idi. O vaxt Azərbaycan Kommunist Partiyasının məsul şəxslərinin bu məsələ ilə bağlı etirazına baxmayaraq, Moskvadan verilən qərar dəyişdirilməmiş və 1948-ci il may ayının 13-də Azərbaycan SSR Nazirlər Şurası 10945 nəfər insanın Kür-Araz vadisində yerləşdirilməsi barədə qərar qəbul etmişdi. Bunun ardınca həmin dövrdə Sovet İttifaqının milliyyətcə erməni olan metallurgiya naziri İvan Tevosyan Qafan bölgəsində yaşayan və mədənlərdə çalışan təxminən 100 ailənin Daşkəsəndəki filiz mədənlərdəki işi yaxşılaşdırmaq üçün Azərbaycana köçürülməsini təşkil etmək barədə göstəriş vermişdi. Yerli əhali yurd yerlərindən çıxarılmalarına etiraz etsə də, onların istəkləri nəzərə alınmır, saxta protokollar tərtib edilərək guya əhalinin razı salındığı bildirilir və köçürülməsi planlanan azərbaycanlıların sayı daha da artırılır, itaətsizlik göstərənlərə isə zor tətbiq edilirdi. Ermənilər tərəfindən doğma ocağından hədə-qorxu ilə köçməyə məcbur edilən azərbaycanlılar isə həm yollarda, həm də köçürüldükləri yerlərdə böyük problemlərlə üzləşirdilər. Çünki birdən-birə böyük sayda əhalinin qəbul edilməsi, onların yerləşdirilməsi və lazımi şəraitlə təmin olunması respublikanın imkanları daxilində deyildi. Azərbaycanlıların illərlə qurub-yaratdıqları evlərdə isə ermənilər rahat şəraitdə yaşayırdılar.

**1949-cu ilin iyul ayında SSRİ Nazirlər Şur**

asının rəhbərliyi ilə aşkar şəkildə həyata keçirilən azərbaycanlıların deportasiyasının sürətləndirilməsi və qarşıya çıxan problemlərin həll edilməsi üçün SSRİ tərəfindən Əsas Köçürmə İdarəsi yaradılmışdı. Bundan sonra həmin il dekabr ayının 17-də SSRİ Nazirlər Şurası daha 3500 ailənin Ermənistandan Azərbaycana köçürülməsi barədə qərar vermiş, 1950-ci il 6 sentyabrda verilmiş daha bir qərar əsasında 15 min ailənin köçürülməsi həyata keçirilmişdir. Bütün bunlara baxmayaraq, azərbaycanlıların Ermənistandan köçürülməsində böyük marağı olan Moskvadakı rəhbərlik rəsmi Bakını 1948-1949-cu illər planında nəzərdə tutulduğundan daha az insanın köçürülməsinə görə tənqid edirdi. Azərbaycanlıların sıx yaşadıqları Basarkeçər rayonunda 600-dən çox ailə məcburi şəkildə evindən çıxarılmış, əhalinin etirazlarının təşkilatçısı kimi rayon rəhbəri tutduğu vəzifədən azad edilmişdir. Ermənistan rəhbərləri Vedi rayonundan azərbaycanlıları köçürmək üçün daha sərt üsuldan istifadə etmiş, köçürmənin ilk ilində rayondan 500 nəfərin köçürülməsi nəzərdə tutulsa da, 1948-ci il aprelin 28-nə kimi 9915 nəfərin köçmək üçün razılıq ərizəsi alınmışdı. Halbuki 1948-ci ildə Ermənistandan köçürüləcək insanların sayı ümumilikdə 10 min nəfər təşkil etməli idi. Beləliklə, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli fərmanına əsasən "könüllü" olaraq həyata keçirilmiş azərbaycanlıların öz vətənlərindən deportasiyası 1954-cü ilədək davam etmişdi.

Azğınlaşmış ermənilər "dənizdən-dənizə böyük Ermənistan" arzusu ilə Azərbaycan ərazilərində milli tərkibi dəyişdirməyi dövlət səviyyəsində həyata keçirmişlər. Azərbaycanlıların İrəvandan deportasiyasının sonuncu və ən dəhşətli mərhələsi 1988-1991-ci illərə təsadüf etmişdir. Həmin illərdə azərbaycanlılar yaşayan kəndlərə ərzaq göndərilmir, elektrik xətləri kəsilir və əhaliyə silahlı basqınlar edilirdi. Azərbaycana gedən bütün yollar üzərində silahlı quldur dəstələri dayanaraq yaşayış yerlərini tərk etməyə məcbur olan

ailələrə yollarda divan tutur, əmlaklarını qarət edir, özlərini isə qətlə yetirirdilər. Deportasiya zamanı yüz minlərlə soydaşımız tarixi etnik torpaqlarından zorla çıxarılmış, onlara məxsus evlər zəbt olunmuş, şəxsi, eyni zamanda kollektiv təsərrüfatların əmlakı talan edilmiş, yüzlərlə azərbaycanlı qətlə yetirilmiş, yaralanmış, insanlara ağlasığmaz işgəncələr verilmişdi. Ermənilərin Azərbaycana qarşı uzun illər boyu apardığı ardıcıl etnik təmizləmə, soyqırımı və təcavüz siyasətinin son mərhələsində - 1987-1991-ci illərdə 300 minə yaxın azərbaycanlı Qərbi Azərbaycandan deportasiya olunmuşdur. Bütün bunlar vaxtilə yaxın qonşu hesab etdiyimiz nankor ermənilərin xalqımıza bəslədikləri kin-küdurətin, xəyanətin, xəbisliyin təzahürüdür.